# Azərbaycanda daha bir ilkə imza atıldı

## *"Şuşa akkordu"nun imzalanması ilə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi təşkilata çevrildi*

NAM YOUTH SUMMIT
25-29 JULY, 2022
BAKU, AZERBAIJAN

**"Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması idi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu Hərəkatın çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır. Bu, bizim təşəbbüsümüz idi və bu təşəbbüs artıq özünü real həyatda göstərir. Eyni zamanda, Gənclər Platforması da yaradılır.**

Gənclər forumu keçiriləcək və Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradılacaqdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə bildirib. Dövlət başçısı, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyindən danışmış, sədrliyin 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadıldığını vurğulayaraq demişdir ki, bu, Azərbaycanın 120 ölkə arasında çox böyük nüfuz qazandığını və bu illərdə ölkəmizə inamın daha da artdığını göstərir. Azərbaycan isə məsuliyyətli ölkə və Qoşulmama Hərəkatının sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişdir.

Qoşulmama Hərəkatının (QH) Gənclər Sammiti 2022-ci il iyulun 25-də Bakıda öz işinə başladı. İyulun 29-da Şuşada başa çatdırıldı. Beləliklə, Bakı və Şuşa daha bir beynəlxalq toplantıya evsahibliyi etdi. Sammitdə Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndəsi, habelə bir sıra ölkələrin Azərbaycandakı səfirləri iştirak edirdilər.

**(davamı 6-cı səhifədə)**

Respublika.- 2022- ci il.- 10 avqust.- S. 1.

# Azərbaycanda daha bir ilkə imza atıldı




Azərbaycanda əhalinin təxminən 23 faizini təşkil edən gənclərin diqqət və qayğı ilə əhatə olunması, onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub yaşadan, eyni zamanda, ümumbəşəri, mütərəqqi ideyaları mənimsəyərək qloballaşan dünyada inteqrasiya etməyə qadir olan nəsil yetişib. Məhz bu milli dəyərlərə hörmət ruhunda böyümüş gənclərimiz 30 il işğal altında olmuş torpaqlarımızın azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində əvəzsiz xidmətlər göstəriblər. Biz belə gənclərimizlə fəxr edirik".

Tədbirdə, həmçinin BMT Baş Assambleyasının 76-cı sessiyasının sədri Abdulla Şahidin Qoşulmama Hərəkatının Gənclər Sammitinin iştirakçılarına ünvanladığı videomüraciəti də təqdim olunub. Abdulla Şahidi bildirib ki, Qoşulmama Hərəkatının Gənclər Sammitinin təşkilində və gənclərlə bağlı məsələlərin həllində Azərbaycan hökumətinin fəaliyyəti təqdirəlayiqdir. O, postpandemiya dövründə dünyanın bərpasında gənclərin fəal iştirakının təmin edilməsinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, hər bir aktual mövzunun müzakirəsində, qərarvermə prosesində gənclərin iştirakı lazımdır və labüddür. O, həmçinin bildirib ki, BMT və onun institutlarında inklüzivlik və fərqlilik indi daha vacib olub. Qoşulmama Hərəkatı dünyanın müxtəlif nöqtələrindən olan gənclər üçün mədəni mübadilə istiqamətində platforma təşkil edir və bu, çox vacibdir. Daha sonra Gənclər Şəbəkəsinin hazırkı sədri Orduxan Qəhrəmanzadə çıxış etmişdir. Sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə etmiş, QH Modeli Simulyasiya məşğələsi, eləcə də təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında, müxtəlif rəsmilərin qatıldığı panel müzakirələrdə iştirak etmişlər.

Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Elnur Məmmədov Bakıda keçirilən Qoşulmama Hərəkatının gənclər qolunun sammitindən danışarkən deyib ki, dünya gənclərinin əksər hissəsi inkişafda olan ölkələrdə yaşayır və bu ölkələr Qoşulmama Hərəkatının üzvüdür. Bu gənclik müxtəlif çətinliklərlə üzləşib və COVID-19 pandemiyası ilə vəziyyət daha da mürəkkəbləşmişdir. İndi onların dəstəyə böyük ehtiyacı var: "Azərbaycan BMT-nin hədəflərini, xüsusilə də gənclərlə bağlı hədəflərini dəstəkləyir", - deyən nazir müavini vurğulayıb ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edən ölkə kimi bu təşkilatın gənclik qolunu yaradıb və bu, qlobal səviyyədə gənclər arasında şəbəkənin yaranmasına imkan verir.

**(əvvəli 1-ci səhifədə)**

Sammitin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakçılara ünvanlanmış müraciəti oxunmuşdu. Müraciətdə deyilirdi: "Hər bir ölkənin sosial inkişafının, rifahının aparıcı qüvvəsi olan gənc nəsil həm də qlobal tərəqqinin lokomotividir. Çağırışlarla dolu müasir dünyada fəal və yaradıcı gənclər arasında dialoq bəşəriyyətin üzləşdiyi problemlərin müzakirəsi, onların həllinə dair ideya və baxışların bölüşməsində vacib rol oynayır.

## "Şuşa akkordu"nun imzalanması ilə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi təşkilata çevrildi

Qeyd edək ki, Qoşulmama Hərəkatı (QH) Gənclər Sammitinin iyulun 29-da Şuşada keçirilən sessiyasında sammit iştirakçılarının iyulun 25-28-də keçirilmiş Bakı sessiyasında razılaşdırdıqları sənədlər Şuşada qəbul edilib. "Şuşa akkordu" (Şuşa razılaşması) kimi adlandırılan sənədə əsasən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində təşəbbüsü ilə 2021-ci il oktyabrın 4-də təsis edilmiş Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Daimi katibliyi Bakı şəhərində yerləşən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının nizamnaməsi, təşkilatın loqo və bayrağı da sammitin Şuşa sessiyası çərçivəsində təsdiq edilib.

Tədbir çərçivəsində Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Qoşulmama Hərəkatına üzv ölkələrin nümayəndələrinin iştirakı ilə QH Gənclər Sammitinin nəticələri və QH Gənclər Təşkilatının gələcək fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Qoşulmama Hərəkatı Gənclər Sammitinin iştirakçıları iclasdan sonra Şuşa şəhərinin mərkəzi meydanındakı Azərbaycanın tanınmış şəxsiyyətləri Xurşidbanu Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər. İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin ciddi səyi nəticəsində həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb. Sammit iştirakçıları sonra Cıdır düzünü, Molla Pənah Vaqifin məqbərəsini, Qala divarlarını ziyarət ediblər.

Sammit haqqında fikirlərini ifadə edən Qoşulmama Hərəkatının Gənclər Təşkilatının hazırkı sədri Orduxan Qəhrəmanzadə deyib ki, mədəniyyət paytaxtımız Şuşa şəhəri Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi dövründə böyük bir tarixi hadisəyə şahidlik etdi. Ötən ilin oktyabrında təsis olunan Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi Şuşa şəhərində "Şuşa akkordu" adlanan sənədlərin qəbulu nəticəsində Qoşulmama Hərəkatının Gənclər Təşkilatına çevrildi. Sevindirici haldır ki, BMT-dən sonra belə böyük, geniş təsisatın 60 ildən sonra Gənclər Təşkilatının təsis edilməsi haqqında qərar məhz mədəniyyət paytaxtımız Şuşada qəbul olundu. Bu, Qoşulmama Hərəkatı, o cümlədən Azərbaycan üçün çox böyük tarixi hadisədir.

"Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin təşkilata çevrilməsi tarixi nailiyyətdir" - deyən Sudan nümayəndəsi Mustafa Abdelhallem Mahmud qeyd edib ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin birinci sammiti olduğu üçün mühüm əhəmiyyətə malikdir. Sudan nümayəndəsi bildirib: "Hər kəs bu təşkilatın uğurlu olmasını səbirsizliklə gözləyir. Bizim qarşıda görüləcək hələ çox işlərimiz var. Xatırlatmaq yerinə düşər ki, Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından (BMT) sonra ikinci ən böyük təşkilatdır. Bu, o deməkdir ki, Gənclər Təşkilatında 120 üzv dövlətdən nümayəndələr bir araya gələcək. Buna görə də Gənclər Təşkilatı gənclərin inkişafına müsbət təsir göstərəcək. Tədbirin Azərbaycanda keçirilməsinə görə dövlətinizə, şəxsən Prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk".

Bəli, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə daha bir ilkə imza atdı. İnanırıq ki, bir araya gələn, birgə fəaliyyət göstərən dünya gəncləri bəşəriyyətə öz töhfələrini verəcəklər. Dünyamızın həll ediləcək problemləri isə çoxdur...

*Zümrüd QURBANQIZI,*
*"Respublika".*